# Sertifikat kateqoriyasına görə paylanma




2024-cü ildə keçirilən imtahanlara cəlb edilməsi nəzərdə tutulan nəzarətçilər bazası 15661 nəfərdən ibarət olmuşdur. Bunlardan 4041 nəfər zal nəzarətçisi sertifikatı almış şəxslərdir (ümumi bazanın 25,8%-i).

Sertifikatlı nəzarətçilərin sayı 2022-ci il ilə müqayisədə 13,8%, 2023-cü il ilə müqayisədə isə 8,1% artmışdır.

# İş yerinə görə paylanma




Ümumi təhsil müəssisələrindən cəlb edilən nəzarətçilər ümumi bazanın 84,7%-ni təşkil edir. Bu say 2022-ci il ilə müqayisədə təxminən 8%, 2023-cü il ilə müqayisədə isə təxminən 5% azalmışdır.

# Təhsil səviyyəsinə görə paylanma




Nəzarətçilər bazasının 88,8%- ali təhsillidir. Magistr və yuxarı elmi dərəcəli nəzarətçilərin sayı 2022-ci il ilə müqayisədə 4,9%, 2023-cü il ilə müqayisədə 2,6% artmışdır.

# İxtisasa görə paylanma




Nəzarətçilər bazasının 81%-i riyaziyyat, ingilis dili, kimya, coğrafiya, biologiya, fizika, tarix, ibtidai sinif müəllimliyi ixtisaslarına və pedaqoji profilli olmayan digər ixtisaslara malik nəzarətçilərdir.

2022 və 2023-cü illəri birgə müqayisə etdikdə riyaziyyat, informatika, psixologiya, musiqi, rəsm və pedaqoji profilli olmayan ixtisaslara malik zal nəzarətçilərin sayının artdığını, ibtidai sinif müəllimliyi, tarix, ingilis dili ixtisaslı zal nəzarətçilərinin azaldığını, digər pedaqoji profilli ixtisasların isə (fizika, biologiya və s) sabit qaldığını görürük.

# Regionlar üzrə paylanma




Nəzarətçilər bazasının 31,7% Bakı şəhərinin, 9%-i Gəncə RB-nin, 7,5%-i Sumqayıt və Abşeronun payına düşür. Digər bölmələr üzrə paylanma 5,1% ilə 7,6% arasında dəyişir.

# Respublika üzrə imtahanlara cəlbolunma sayı




Respublika üzrə imtahanlara 14428 nəzarətçi (bazanın 92,1%-i) 55133 dəfə cəlb edilmişdir.
Ortalama olaraq hər bir nəzarətçi **<u>3,8 dəfə</u>** imtahana cəlb edilmişdir.




Qəbul və buraxılış imtahanlarına birlikdə 87,7%-i (13737 nəfər),
- qəbul imtahanlarının ikinci mərhələsinə 46,7%-i (7261 nəfər),
- buraxılış imtahanlarına 77% (12054 nəfər) cəlb edilmişdir.

# Yekun qiymətləndirmə (2024)




Cari il imtahanlarda iştirak etmiş nəzarətçilərin bütün fəaliyyəti nəzərə alınmaqla, 90,3%-nin fəaliyyəti əla, 6,5%-nin yaxşı, 0,6%-nin kafi, 0,7%-nin isə qeyri-kafi qiymətləndirilib.

# İllərə görə yekun qiymətləndirmə (2015-2024)

